MƏMMƏD TAHİR

# ÇİNARLAR YOLA BAXIR

*Rəsul Rzanın əziz xatirəsinə*

İxtisarla

Göyçayın gecələri
Ay işığıyla dolu.
Gündüzlər çıraq kimi
Alışır hər nar kolu.
Dağı, düzü, dərəsi
Açır payız sərgisi.
Qalxır hər kol dibindən
Yurdun payız sevgisi.
Şairin "Rənglər"idi
Hər güneyi, quzeyi.
Durur üzü günəşə
Rəsulun ev muzeyi.
Köhnə bir məhəllədə
Bağ-bağatlı bir həyət.
Burda böyük şairə
Vardır sevgi, məhəbbət.

Ağaclar susayanda
Su yerinə söz içir.
Şeirlə nəfəs alır,
Günü şeirlə keçir.
Gözlərini ilk dəfə
Bu ocaqda açıb o.
Bu həyətdə yüyürüb,
Bu həyətdə qaçıb o.
Yeriyib addım-addım,
Şehli otlar üstündə.
Qaçıb arzu dalınca
Cüt qanadlar üstündə.
Könlündən qatar-qatar
Duyğular keçib burda.
Şeir,sənətə sevgi
Qəlbinə köçüb burda.
Gül dərəndə, əlləri
Gül qanına batıbdı.
Bəzən budağa qonan
Quşa da daş atıbdı.
Göyçaydan başlayıbdı,
Həyata ilk sevgisi.
Göyçay onun gözündə
Dünyanın ilk sərgisi.
Tanrı cüt qanad verib
Yerdəki mələyinə.
Bir sevgi damızdırıb
İlk körpə ürəyinə.
Səbəbsiz yaratmayıb
Nə əqrəbi, ilanı.
Seçib bəşər içindən
Ona yaxın olanı.

***

Çıxıb heca vəznindən
Rəsul Rza sərbəstliyi ilə
Düşürəm muzeyin həyətinə.
Və içimdən
Bir heyrət hissi keçir
Şeir və sənətin bu böyük qüdsiyyətinə.
Rəsul elçi deməkdir.
O,Sərbəst şeirimizin
İlk elçisi oldu .
Şeirləri poeziyamızın
Bir incisi oldu.
Birincisi oldu.
Beləcə dağıldı
Qəzəl əsarəti,
Heca xofu.
Dəyişdi sərbəst şeirə münasibət.
Şeirimizdə bir az da artdı səmimiyyət.
Fikirlər daha sərt,
Daha qəti.
Artdı şeirin cəsarəti.
Dərdlərimiz daha aydın,
Daha açıq deyildi.
Şeirin yolu
Əvvəllər heç belə açıq deyildi.
Yeni qafiyələrin yuxusu qaçdı.
Bu yolu Rəsul Rza açdı.
Gözlərindən od parlayan,
Zamanı at kimi gah çapan,
Gah tumarlayan
Bir şair.
Dünənin,
Bu günün,
Sabahın havasıdır.
İçindəki adamların sevgisi,
Allahın havasıdır.
O, sizi, bizi,
Tanıtdı sərbəst düşüncəmizi,
Sərbəst şeirimizi.
Tanıdı məmləkətlər,
Ölkələr tanıdı.
Onu aydınlıqlarla dolu
İşıqlı kölgələr tanıdı.

***

Divarlar mübhəm, sirli.
Otaqlar isti, hənirli.
Burda zaman atlı, yavər.
Eksponatlar dilli, dilavər.
Sual verməmiş Rəsuldan söz açır.
Divardan asılmış şəkillər
Çərçivədən çıxıb
Adamlara qarışır.
Canlı, dipdiri,
Zamanla yarışır.
Eksponatlar arasında
Bir yazı makinası.
Klaviatura üstündə
Şairin barmaqlarının
Cövrü-cəfası.
Rəngini illər yuyub.
Üstündəki lentanın
Mürəkkəbi çoxdan quruyub.
Makina-şairin yazan əli,
Yüyrək ayağı.
Şeirlə keçən günlərinin ortağı.
Könlünün qapısını
İlham döyəndə,
Barmaqları düymələri döyəcləyib.
Sözlə pisliyi, şəri döyəcləyib.
Eksponatlar sırasında geydiyi köynək,
İşığına oturduğu çıraq.
Bir də o çıraq işığından
Süzülüb gələn xatirələr
Qalaq-qalaq.
Bir zamanlar
Sinəsinə sıxdığı tar.
Burda Rəsul Rzanı xatırladacaq
Çox şey var.
Hamısının üstündə əl izləri.
Onlarla bir yerdə keçən
Gecələri,gündüzləri.
Ölçülmüş anlar,
Qəliblənmiş saniyələr.
Hər addımda
Əngəllər,maniələr.
Narahat dəqiqələr,
Əsəbu anlar.
Onu tanyanlar, tanımayanlar.
Onunla yarışanlar,
İşinə qarışanlar.
Və ilaxır, və sair.
Burda böyük şairə dair
Hər şey onunla bağlı.
Hər günü qaralı, ağlı.
Hər günü bir şeir, bir əsər,
Günləri beləcə
Bir-birinə bənzər.
Gedər payız, gələr yaz,
Rza, durma, Rza, yaz.
Şeirinin dili o qədər aydın ki,
Nadan yüz kərə oxusa,
Yenə anlamaz.

***

Hərdən Ata yurduna,
Göyçaya gələrdi.
Hər kərə gələndə
Gedərdi Çərəkə gölünə.
Tilov alıb əlinə
Balıq tutardı.
Bir az
Kənd havasından udardı.
Kənd lavaşından,
Pendirdən yeyərdi.
Bilməzdi axşamdı, səhərdi.
Gölün ləpəli suları
Sərinlədərdi duyğularını.
Sular ahəstə-ahəstə
Öpərdi şairin ayaqlarını.
O anlar şeir dindirərdi
Şairin dodaqlarını.
Sular dalğalanardı
Ahəstə-ahəstə.
Şairin başı üstən
Quşlar uçardı dəstə-dəstə.
Hərdən dilxor olardı
Atdığı tilov
Sularda nəyəsə ilişəndə.
Hərdən də qəşş edib gülər, sevinərdi
Tilovuna balıq düşəndə.
Hərdən Göyçaya gələrdi,
Hər kərə gələndə,
Bu evə baş çəkərdi.
Əynini dəyişib,
Səliqə-sahman yaradardı.
Qəribə hövsələsi vardı.
Ya gül kollarının dibini təmizlər,
Ya ağac əkərdi.
Güllərlə,ağaclarla
Söhbət etməyi xoşlardı.
Hərdən ağac kölgəsində
Fikrə getməyi xoşlardı.
Hərdən Göyçaya gələrdi.
Hərdən,
Şəhərdən.

***

Muzeydən bir az aralı,
Yoğun gövdəli bir çinar ağacı.
Pirani, yaşlı bir qoca
Zamanla aramızda olur araçı.
Söhbət edir,
Çinar ağacını göstərib,
Şair öz əliylə əkib-deyir.
Üstündə əsib,
Qayğısını çəkib -deyir.
Soruşuram, necə adam idi?
Qoca fikrə dalır,
Bir az tünd idi xasiyyəti,
Amma el-oba üçün yanar şam idi.
Hər kəsə kömək edərdi.
Ürəksizləri ürəkli edərdi,
Çörəksizləri çörəkli edərdi.
Daş atana daş qaytarmazdı.
Bir kimsəni qapısından
Boş qaytarmazdı.
Üzü ciddi,
Ürəyi yuxa idi.
Düşmənə bağlı qapı,
Dosta açıq yaxa idi.
Qoca söhbət edir,
Zaman uçub gedir.
Yel əsir,
Yellənir çinarın yarpaqları.
Gah əsir,
Gah titrəyir,
Qocanın dodaqları.
Vaxt keçir,
Şər qarışır.
Qoca Rəsuldan danışır.

***

Sən hansı küçədən yolunu salsan,
Ya Əli Kərim var, ya Rəsul Rza.
Sən hansı qapının zəngini çalsan,
Ya Əli Kərim var, ya Rəsul Rza.

Göyçayda göz açan, doğulan körpə
Ya Əli Kərimdi, ya Rəsul Rza.
Burda hər könüldə ucalan türbə
Ya Əli Kərimdi, ya Rəsul Rza.

Kimi danışdırsan, kimi dindirsən,
Əli Kərim deyir, ya Rəsul Rza.
Kimin könlündəki şamı söndürsən,
Əli Kərim olur, ya Rəsul Rza.

Budaqdan üzülən sonuncu yarpaq
Ya Əli Kərimdi, ya Rəsul Rza.
Şeirin üstündə ucalan bayraq
Ya Əli Kərimdi, ya Rəsul Rza.

Bizimlə birlikdə yaradan, quran
Həm Əli Kərimdi, həm Rəsul Rza.
Hər gün al səhəri salama duran
Həm Əli Kərimdi, həm Rəsul Rza.